# Iydələr çiçəkləyəndə

*(Hekayə)*

**Bakıdan rayona səhərə yaxın gəlib çıxan Xanlar, qardaşı Şahların evlənməyə razılıq verməsi xəbərini anasına tez çatdırmaq üçün tələsirdi. O, özündən cəmi iki yaş kiçik olan, lakin artıq 30 yaşını haqlamış qardaşını dilə tutmaq üçün iki gün idi ki evindən çıxmışdı. Stansiyada qatardan düşən kimi taksiyə minib kəndlərinə yola düşdü. Bu iki gün evindən ayrı qalmağı ona iki ay kimi görünürdü. Anası, ailəsi və təsərrüfatı üçün çox darıxmışdı.**

O, həyətə daxil olanda arvadı Dilşad tut ağacına bağladığı alagöz inəyi sağırdı. Ərinin şəhərdən belə tez qayıtdığını görüb, təəccüblə soruşdu:

- A kişi, belə tezdən qayıtmağın xeyirdimi?

Xanlar arvadının sualına sualla cavab verdi:

- Başa düşmədim, kişinin öz evinə qayıtması üçün vaxtı ona kim qoyur ki? Yoxsa, gəlməyimə narazısan?

- Sən dədəvin goru, yenə səhər-səhər dava axtarma. Dedim, yəni tez gəlməyin xeyirdimi? Gedəndə demədin ki, ən azı bir həftə qağamgildə qalacağam?

Xanlar özü ilə şəhərə gedəndə dolu, indi isə - geri qayıdanda boş gətirdiyi dermontin üzlü taxta çamadanı arvadının yaxınlığında yerə qoyub, üstündə oturdu. Pencəyini çıxardıb, dizinin üstünə sərdi. Sonra arxası ona tərəf olan arvadını süzüb, dedi:

- Dilşad, axır ki Şahları razılığa gətirdim. Daha orda çox qalmağın nə mənası? Gələn ayın sonunda qağamın toydur ey, toyu.

- Hə, nə yaxşı! Çox şükür! Şahlar da evlənərmiş, görən gün hardan çıxıb? Qaynanamın da canı qurtarar deyinməkdən. Otu-rur-durur, elə Şahların evlənməməyindən danışır.

Xanlar həyət-bacaya göz gəzdirib soruşdu:

- Ay Dilşad, qaynana demişkən, anam hanı, gözümə dəymir?

Dilşad vedrəni inəyin altından çəkib, ayağa qalxdı, əlini döşlüyünə silə-silə cavab verdi:

- Bir az var Şahların atını minib, rayon mərkəzinə getdi.

- Pay atonnan, mən bu arvada min dəfə demişəm ki, ay ana, sənin at minən vaxtın deyil. Heç gör adamı eşidir? Nə əcəb gedib, səhər tezdən nə xəbərdi?

- Qonşumuz Narınc xalanın ayağı sürüşüb, arxası üstə pilləkəndən yıxılıb. Dünən axşam Turab dayı onu aparıb xəstəxanaya.

Xanlar dişlərini ağartdı:

- Mən bilən Narınc xalanın ayağı sürüşkən olmalı deyildi axı, a Dilşad.

- Mənimlə məzələnirsən?

- Məzələnmirəm ey, soruşuram, yəni... - Xanlar sifətinə ciddi görkəm verərək, narahatçılıqla sözünə əlavə etdi, - ciddi bir şey olmayıb ki, sınığı-zadı yoxdur?

- Yox, əşi. Axşam xəstəxanadan qayıdan kimi Turab dayıdan soruşduq, dedi ki, elə bir şey yoxdur. Həkimlər deyib ki, ombası möhkəm əzilib, amma sınığı yoxdur. Bir-iki günə əmələ gəlsin evə buraxacaqlar.

Xanlar gülümsünərək, ah çəkdi:

- Deyirsən yəni, Narınc arvadın əlli ilə bəsləyib əmələ gətirdiyi o boyda ombanı indi həkimlər bir-iki günə əmələ gətirəcəklər? Heç ağlım kəsmir ki, arvadın ombası bu yaşda belə tez əmələ gələ. Yazıq Turab dayı, indi nə qayıracaq?

Dilşad süd süzdüyü vedrəni yaxalamaq üçün həyətdəki su krantına yaxınlaşdı. Ərinin son sözünü eşidib, donquldandı:

-Yekə adamsan, ət tökən-ət tökən danışma. Necə yəni - nə qayıracaq? İndiyə kimi nə qayırırdı?

Xanlar bic-bic irişdi:

- Aaz, da niyə əsəbiləşirsən? Deyirəm yəni, inəkləri kim sağacaq, həyət-bacanı kim yığışdıracaq?

- Sən narahat olma.

- Niyə narahat olmayım? Qonşum deyil? Arvadın bir oğlu var, o da şəhərdə. Qızları da ki hərəsi bir kənddə yaşayır, hərəsinin öz evi-eşiyi, öz təsərrüfatı.

Xanlar sözünü qurtarıb, ayağa qalxdı, pencəyini çamadanın üstünə atıb, əl-üzünü yumaq üçün kranta yaxınlaşdı:

- Arvad, yemək hazırla, eyvanda süfrə aç, dünəndən acam, acından ölürəm.

- Niyə acsan ki? Apardığın bir çamadan ətdən, yumurtadan, çolpalardan, motal pendirindən, kərə yağından, göy-göyərtidən, nə bilim - elə yuxadan bir dürmək eləyib yedin, qağan qoymadı? Öyrənmisən ey, Dilşad hər şeyi hazır düzə stola, sən də yeyəsən.

Xanlar əl-üzünü yuyana qədər Dilşad çamadanı həyətin ortasından götürüb eyvanda yerləşdirdikdən sonra süfrə acmaqla məşqul olmağa başladı, süfrəyə yağ, şor və çörək qoydu. Təzəcə bişən süddən iki stəkan süzüb, əriylə üzbəüz oturdu. Xanlar süddən bir-iki qurtum içib, iştahla yeməyə girişdi. O, tələsik çeynədiyi çörəyi udmaq istəyəndə çörək boğazında qaldı. Onun boğulduğunu görən Dilşad, ərinin kürəyinə yumruğu ilə ehmalca döyəcləməyə başladı. Xanlar özünə gəlib, dedi:

- Ay qız, çörək boğazımda qaldı, Turab dayını səslə, gəlsin o da yesin, yəqin kişi acdır.

Dilşad stəkandakı südü üfürə-üfürə içərək, cavab verdi:

- Sən narahat olma. Humay xalam səhər obaşdan gedib onların inəyini də sağıb, kişinin yeməyini də verib.

Xanlar əyri-əyri Turab kişinin evinə sarı baxdı:

- Eh, ay arvad, deyirəm o kişi xoşbəxtdir ki, arvadının ya bacısı, ya da bacılığı var. Yoxsa mənim kimi? Axmaq başım, gedib beş qardaşın bir bacısını almışam.

Dilşad böyründə oturan ərinin qolundan bir yağlı çimdik götürüb:

- Nədi, yoxsa məni bəyənmirsən? Sənə iki oğul dünyaya gətirmişəm ey, qədrimi bilməzsən, - dedi, sonra yumrulaşmış qarnını sığallayıb əlavə etdi, - hələ biri də olacaq. Hər arvadın hünəri deyil ey, dalbadal üç oğul doğa.

Xanlar başı ilə arvadının qarnına işarə edib, mızıldandı:

- Üçüncüsü qız olacaq.

- Nə bilirsən, əlinlə qoymusan?

Xanlar bic-bic gülümsündü:

- Qoymağına... əlimlə qoymamışam, amma yüz faiz bilirəm. Bizim nəsildə üçüncüsü qız olur.

*(Ardı var)*



**Arif ƏRŞAD, Yazıçı-publisist,
Azərbaycan Yazıçılar və
Avrasiya Yazarlar Birliklərinn üzvü,
Prezident mükafatçısı**